*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*

*ISSN: 2148-2292*

*10 (3) 2023*

https://doi.org/ 10.46868/atdd.2023.

*Araştırma Makalesi | Research Article*

*Geliş tarihi |Received : 11.01.2023*

*Kabul tarihi |Accepted: 25.04.2023*

*Yayın tarihi |Published : 25.06.2023*

**Sahibə Musayeva**

https://orcid.org/ 0000-0001-8091-925X

*Azerbaijan National Academy of Sciences Institute of Archaeology, Ethnography and Anthropology dissertation student*

*Atıf Künyesi | Citation Info*

Musayeva, S. (2023). Saxurların Dəfnlə Bağlı Adət və Mərasimləri. *Akademik Tarih ve Düşünce Dergisi*, *10* (3), 674-686.

# Saxurların Dəfnlə Bağlı Adət və Mərasimləri

***Xülasə***

*Məqalədə saxurların qədim və müasir qəbiristanlıqları tarixi-etnoqrafik baxımdan tədqiq edilmişdir. Qeyd olunub ki, orada dini ayinlər həyata keçirən və dəfn yerlərinin təmizliyinə nəzarət edən din xadimləri olmuşdur. Qəbirlər dördbucaqlı formada idi. Türk-müsəlman xalqları, o cümlədən saxur xalqı arasında mərhumun məzarına münasibət, yarılma və dəfn yerinin dəyişdirilməsi müəyyən qaydalara əsaslanmışdır. Bildirilib ki, intihar edənlər ümumi kənd qəbiristanlığında dəfn olunmayıb və qəbirləri ziyarət edilməyib. Bu, əslində bir növ maarifləndirici idi. Qəbirlərin ortası boş qalar və torpaqla örtülərdi. Məqalədə məzar daşlarının inşasında mərhumun dini mənsubiyyətinin nəzərə alındığı və məzar daşlarına soyad, ad, ata adı, doğum tarixi və ölüm tarixinin də qeyd edildiyi bildirilir. Məqalənin yazılmasında bölgədə aparılan etnoqrafik tədqiqatlar nəticəsində əldə olunan informantların məlumatları mühüm rol oynamışdır.*

***Açar sözlər:*** *saxur, qəbiristanlıq, məzar daşı, türk-müsəlman xalqları.*

# Customs and Rituals Associated With Burial of the Tsakhurs

***Abstract***

*In the article, the old and modern cemeteries of the Tsakhurs were examined from a historical-ethnographic point of view. It was noted that there were clergymen (muslim religious functionaries) who performed religious rites and supervised the cleanliness of burial places. The tombs were rectangular in shape. In Turkish-Muslim nations, including the tsakhur people, the attitude towards the grave of the dead, opening and changing the grave are based on certain rules. It was noted that those who committed suicide were not buried in the general village cemetery, and their graves were not visited. It was actually educational in some way. The middle of the graves was left empty and covered with earth. It is also stated in the article that the religious affiliation of the deceased was taken into account when erecting the tombstones, and the surname, name, father's name, date of birth and date of death were also recorded on the tombstones. As a result of ethnographic studies conducted at the time when the article was written, the statements of informants played an important role.*

***Keywords:*** *The Tsakhur people, cemetery, tombstone, Turkic-Muslim nations*

## Giriş

Dağıstanda, eləcə də Azərbaycanın Qax - Zaqatala bölgələrində yaşayan və özlərini “yikiy”, “yikbi” (dağlı, yəni dağdan gələn) adlandıran, ləzgi qrupuna aid rutullarla yaxın və qohum olan, Qafqazın kiçik xalqlarından sayılan saxurların xalq kimi formalaşması uzun tarixi proses keçmişdir. Hər bir saxur kənd əhalisinin ləhcəsində, danışığında, davranışında, adətlərində müəyyən fərqlər özünü göstərir ki, bu da onların müəyyən səbəblər üzündən ailəliklə digər yerlərə köçməsi, məskən salması, bir sözlə, əsas kökdən – kötükdən uzaqlaşması ilə izah edilir. Saxurlar rutullar, avarlar və başqa müxtəlif qonşu xalqlarla etnik - mədəni qarşılıqlı əlaqə və təsir şəraitində yaşmışlar. Araşdırmalardan məlum olur ki, Azərbaycanı Rusiya işğal etdikdən sonra ölkənin qədim dövrləri XIX əsr rus tarixçiləri tərəfindən saxtalaşdırılmış və saxurları “ləzgi” kimi qələmə vermişlər. Məhz XIX əsrdə Azərbaycanın qədim tayfalarından biri olan saxurların yurdları Rusiyanın müstəmləkəçilik siyasəti nəticəsində parçalanmış və bir hissəsi Azərbaycanın indiki sərhədlərindən kənarda (Dağıstanda) qalmışdır. Ona görə də saxurlar həm Azərbaycanda, həm də Dağıstanda yaşayırlar.

Azərbaycan ərazisində arxeoloqlar tərəfindən zaman-zaman aparılan arxeoloji qazıntılar zamanı qəbir abidələri də tapılmışdır. Saxurların yaşadıqları ərazilərdə də çoxsaylı qəbir abidələri və qəbirstanlıqlar aşkar edilmişdir. Bunu ədəbiyyat materialları da göstərməkdədir:

*‘’Saxurların qədim tarixə və zəngin mədəniyyətə malik olduğunu zəmanəmizə gəlib çatmış bir sıra maddi-mədəniyyət abidələrinin qalıqları sübut edir. Dağıstanin Rutul rayonundakı Saxur kəndində aşkar olunmuş 12 məscidin qalıqları, 15 hektar sahəni əhatə edən qədim qəbiristanlıq burada bir zamanlar böyük yaşayış məntəqəsinin olduğunu sübüt edir*’’ (Kərimova, 2017). Onların hər bir aulunda öz həyatlarının müqəddəsliyi ilə məşh ur olan, dini ayinlərin, dəfn yerlərinin təmizliyinə nəzarət edən ilahiyyatçı alimlər var idi.

Qəbiristanlıqlar əhali tərəfindən qorunur və abadlaşdırılırdı. Orada mal-qara otarmaq, ağacları sındırmaq və ya kəsmək qadağan edilmişdir. Kəndin yaşlı sakinləri söylədiklərinə görə keçmişdə qəbiristanlıqların yanından keçən adamlar orada dayanar və atlarından düşüb namaz qılardılar. Vaxtilə kənddə əkinə yararlı olmayan yerlərdə qəbiristianlıq yeri ayrılardı. Qəbiristanlıqlar ən çox təpəlik yerlərdə salınardı.[1]

**1-Qəbir yerlərinin hazırlanması**

Qəbir qazılarkən mərhumun kimin yanında dəfn olunması ilə bağlı vəsiyyəti nəzərə alınırdı. Təzə qazılan qəbir yerindən köhnə qəbir çıxsa idi, həmin yer doldurular və yeni qəbir qazılmırdı. Qafqazın digər müsəlman xalqları kimi saxurlarda da qəbirlər iki hissədən - həyəti və əhləti qəbirlərdən ibarətdir. Qəbirlər dördbucaqlı, həyəti 1,5 metr hündürlükdə, eni 1,3 metr, uzunu isə 2-2,5 metr olur.

Qax rayonunun Kötüklü kəndində əvvəllər qəbir daşı hazırlayan yer yox idi. Ona görə də kimsə vəfat edərdisə kəndin kişiləri yığışar və təmənnasız olaraq gedib dağdan, yaxud, çaydan iri daşlar gətirib ondan qəbir daşı düzəldərdilər. İndi isə bu işi görənlərə 10-15 manat pul verilir. Sonralar kirəcdən hörüldü. Palıd ağacından isə doqqaz hazırlayar, yəni paya vurardılar. Sonralar qəbirlərin ətrafını bağlamağa başladılar.[2]

Etnoqrafik ədəbiyyatda qeyd olunur ki, “qəbrin və əhlətin uzunluğu mərhumun boyu nəzərə alınmaqla qazılır. Əhlət qəbrin həyətinin ortasından, təqribən 30-40 sm.enində, 50 sm.dərinliyində və mərhumun boyuna görə qazılır. Əhlət elə olmalıdır ki, mərhum onun içərisində sağ yanı üstə qoyulanda kürəyi arxa divara söykənsin və istiqaməti dəyişməsin. El arasında “bir qarış torpağa qoyulacaq” ifadəsi əhlətə işarədir. Bu forma qəbirlər ancaq torpaq bərk olan yerlərdə düzəldilir, torpağə boş olan ərazilərdə qəbirin həyəti nisbətən dərin qazılır və sonra əhlət hörülür. Şərurda “çapma” adlanan qəbirlər geniş yayılıb. Qəbrin həyəti qazılır, sonra cənub tərəfindən (Qiblə tərəfdən), aşağı hissədən 50-60 sm.hündürlüyü, 2 metrə qədər

[1] Baharova Xədicə Xəlillah qızı, informator
[2] Təhməzov Xanməhəmməd Rəsul oğlu, informator

uzunluğunda nov şəkilli çağılır və mərhum orada yerləşdirilir. Mərhum sağ yanı üstə, üzü Qibləyə dayansın deyə çapmaya qoyulduqdan sonra çapmanın ağzı sal daşla örtülür, sallar sürüşməsin deyə onların aşağı tərəfi nisbətən torpağa basdırlır" (Qədirzadə, 2012, s. 208). Ana ilə uşaq eyni vaxtda vəfat etdikdə, qəbirin şimal və cənub tərəfində aşağı hissədən çapır, onları birlikdə yəni ana üzərində övladı qəbirə yerləşdirirdilər. Amma islamda bir yerdə dəfn eləmək adəti yoxdur.

Saxurlarda da mərhum qəbiristanlığa gətirildikdən sonra yaxın adamları məzara düşüb onu qəbirə endirirlər. Onlar mərhumu üzü qibləyə qəbirə yerləşdirirlər. Bəzi kəndlərdə qadını qəbirə endirərkən üstünə palaz tuturlar ki, onun kəfənini naməhrəm şəxslər görməsin. Şəriətə görə, mərhumu qəbrə endirərkən ora enən "adam başıaşağı və ayaqyalın olmalıdır" (Kərimov, 1987, s. 51).

Dağıstanlı tədqiqatçı Q. A. Hacıyev göstərir ki,

*"Qafqazın bütün türk-müsəlman xalqları (o cümlədən saxurlar) üçün xarakterik olan adət (qəbrə torpaq tökərkən belin əldən-ələ verilməsi adəti) mərhumun ruhunun, xüsusən bəd ruhları onu dəfn edənə zərər verə bilməməsinə görə edilir. İnanırlar ki, ruh bel vasitəsi ilə dəfn edənə keçə bilər"* (Gadzhiyev, 1980, s. 33).

Saxurlarda mərhum üçün qəbirlər təxminən 2 metr dərinlikdə və 1 metr enində, 60 sm hündürlükdə Məkkə istiqamətində qazılardı. Qadınlar və kişilər üçün qəbrin dərinliyi fərqli olardı - qadınlar üçün təxminən yarım metr daha dərin qəbir qazılardı. Dünyasını dəyişmiş şəxsin xərəyi yuxarı qaldırılır bir neçə yaxın qohumun - oğulun, atanın, qardaşların, əmioğluların çiyinlərində yerə qoyulmadan, bir-birini dəyişdirərək qəbiristanlığa aparılır. Mərhumu tez bir zamanda qəbiristanlığa çatdırmaq və torpağa basdırmaq üçün sürətlə gedirlər, çünki onlar yerin onu gözlədiyinə və mərhumun özünün öz yerinə can atdığına inanırdılar. Məhəmməd Peyğəmbər (s) deyərdi: "Ölülərinizi dəfn etməyə tələsin". "Əgər onlar yer üzündə saleh olsalar, tezliklə əbədi səadətə nail olacaqlar" (Kuleyni, 137). Qəbrə torpaq tökülərkən alt torpaq üstdən tökülür, bu isə "altı üstünə çevrilmək", mərhumun dünyasınınn dəyişməsi mənasını verir. Torpaq tökülüb qurtardıqdan sonra qəbrin yuxarı tərəfində "başdaşı" (qadın qəbirlərində "başdaşı" ilə bərabər "ayaqdaşı da") qurulur. Meyit qəbirə qoyulub, üstü torpaqlandıqdan sonra molla qəbrin üstünə su tökür, fatihə verir ki, mərhumun üzünə su düşsün. Cənazədən sonra üçüncü gün, kişilər səhər qəbiristanlığa mərhumun qəbrinə gedir və dua oxuyurlar. Ailə şənliklərində, toylarda, ad günlərində ölənlər unudulmur, ziyarət olunurdular.

Körpə uşaqlar vəfat edərkən cənazə gətirilmir. Onları kişilər böyük bir balıncın üstündə qollarında qəbiristanlığa gətirirlər. Qax rayonunun Qum kəndində mərhumlar cərgə ilə basdırılır, qəbir yerini əvvəlcədən tutmağa pis baxılır. Həmin kənddə əvvəlcədən özünə qəbir qazmaq adəti də yoxdur.[3]

Qəbiristanlığa gələrkən cənazəyə salınmış xalça, yaylıq evə aparılmır. Tabut qəbiristanlıqda üzü üstə çevrilir ki, bir daha ölü gətirilməsin. Qəbiristanlığa gətirilmiş daş, qum, taxta və s.-nin artığını qəbiristanlıqda qoyurlar ki, başqaları istifadə etsinlər. Əhali arasında bunu savab iş bilirlər.

*"Xalq arasında belə bir inam mövcuddur ki, qəbrə yağış və ya qar yağsa, o uzun müddət davam edər. Maraqlı məsələlərdən biri boş qəbrə münasibətdir. Yəni ola bilər ki, bir nəfəri ölmüş bilinib qəbir qazılsın, sonra isə o, ayılsın (ölməsin), yəni dəfn olunmasın. Həmin qəbirlər boş saxlanılmır. Ona daş qoyub basdırırlar. Burada iki qədim inam birləşmişdir: Daşın insanı əvəz edə bilməsi, canlı hesab edilməsi və qəbrin boş qalması nəticəsində yeni adamın ölməsi. Daş qoyub basdırılmış qəbrə ayrı meyit qoyula bilməz. Ancaq həmin adam öldükdən sonra orda dəfn edilməlidir"* (Qədirzadə, 2012, s. 210).

Azərbaycan höküməti qəbiristanlıqların salınması və idarə olunmasını tənzimləyir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 dekabr tarixli 522 saylı qərarı ilə "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları" təsdiq edilmişdir. Qərarda qəbiristanlıqların salınması barədə qərarnı qəbul olunması, onların idarə olunması, qəbiristanlıqların köçürülməsi, qəbir yerlərinin ayrılması, dəfn xidmətləri, qəbirüstü tikililərə dair tələblər vəs. göstərilmişdir.

Qəbirüstü tikililərə dair tələblərdə göstərilir ki, "qəbirüstü tikililər quraşdırılarkən ölmüş şəxsin dini mənsubiyyəti nəzərə alınar, soyadı, adı, atasının adı, doğum və ölüm tarixləri qəbirüstü tikililərdə qeyd olunur. Başdaşı qoyulduğu halda hündürlüyü 1 metrdən və eni 0.6 metrdən artıq olmamaqla eni 0.6 metr və hendürlüyü 0.25 metr olan altlıq üstündə quraşdırılmalıdır. Sinədaşı qoyulduqda hündürlüyü torpaqdan 0.2 metr, uzunluğui 1.2 metrə və eni 0.6 metrə qədər olmalıdır. Qəbirüstü tikililərin quraşdırılmasında cərgə ilə sırlanmağa əməl olunması və qəbrin ətrafı hasara alınmamalıdır" (Xalq qəzeti, 4 dekabr, 2018). Deməli, Azərbaycan hökümətinin yuxarıda sözügedən qərarında şəriət qaydalarına zidd olan, əlavə israfçılığa səbəb olan təmtəraqlı qəbirüstü abidələrin düzəldilməsinə yol vermir.

Zaqatala rayonunun Yeni Suvagil kəndinin imamının məlumatına görə qəbul olunan standartlar bu kəndə də özünü göstərir. Məsələn, kənddə qəbir standart formada olur, yəni 60sm

[3] Rəcəbova Səriyyə Məhəmməd qızı, informator.

hündürlüyü keçməməli, mərasim zamanı süfrəyə halva, xurma, çay qoyulmalı təmtəraqlı bəzədilməkdən çəkinməlidirlər.[4]

**2-Türk-müsəlman xalqlarında, o cümlədən saxurlarda qəbirlərin oxşar xüsusiyyətləri**

Türk-müsəlman xalqlarında, o cümlədən saxurlarda mərhumun qəbrinə münasibət, onun açılması, dəyişdirilməsi müəyyən qaydalara əsaslanır. Şəriətə görə qəbri ancaq aşağıdakı şərtlərlə açmaq olar:

*"1.Mərhum özgənin torpağında basırılanda və torpağın sahibi orda qəbir olmasına icazə verməyəndə;*

*2.Kəfən və ya digər dəfn ləvazimatı qəsb edilmiş və ya oğurlanmış olanda;*

*3.Dəfn zamanı şəriət qaydalarına əməl edilmədiyi (mərhumu kəfənsiz basdırıldığı və ya qəbrə üzü Məkkəyə tərəf qoyulmadığı və başqa pozuntular) aşkar olunanda;*

*4.Müsəlman dinsizlər qəbiristanında və ya nəcasət tullanan yerdə basdırılanda;*

*5.Hamilə qadın vəfat etmişdirsə, şəriətin tələbi ilə onun bədənindən uşağı çıxarmaq üçün qəbri açmaq lazım olanda;*

*6.Yırtıcı heyvanların cəsədi çıxara biləcəyi təhlükəsi olanda, yaxud da mərhumun düşmənləri vardırsa, onların mərhumun cəsədi çıxarıb eybəcər hala salacağı təhlükəsi olanda;*
*7.Dəfndən sonra mərhumun bədəninin basdırlmayan üzvü aşkar edildikdə (məsələn, mərhum başı, ayağı, əl və ya başqa bədən üzvləri kəsilməklə öıdürülmüşdüsə)"*(Kərimov, 1987, s. 52-53).

Bunlarla bərabər, müəyyən cinayət işləri və mübahisəli məsələrlə bağlı da qəbirlərin açılması mümkün idi. Ümumiyyətlə, əksər xalqlarda olduğu kimi, saxurlarda da qəbrin açılmasına münasibət yaxşı deyildir. Ona görə də başqa hallar olmadıqda qəbrin açılmasına icazə verilmir.

Araşdırmalar sübut edir ki, türk xalqları qədim kurqan mədəniyyətinin, daşqutu qəbirlərin, kollektiv dəfnlərin, mərhumun cəsədinin yandırılmasının və açıq havada dəfninin yeganə daşıyıcılarıdır. Azərbaycanın bəzi bölgələrində arxeoloji qazıntılar zamanı bir çox *"qəbirlərin heç birində insan sümükləri əldə edilməmişdir"*(Agayev, 2002, s. 41).

Q. Ağayev belə qəbirlərin ehtiyat üçün hazırlandığı fikrini təkzib edir. O, bu tip qəbirlərin kənarda həlak olanlar üçün hazırlandığını, onların cəsədlərinin kremasiya ilə bağlı olduğunu, mərhumun qəbirdən kənarda yandırıldığını, külünün çaya, suya səpələndiyini

---

[4] Hüseynov Qeybulla Musa oğlu, informator

göstərir (Agayev, 2002, s. 49-50). Bu cür qəbirlərə saxurlarda rast gəlinməsə də, tarixdə müxtəlif ehtiyat qəbirləri düzəldilmişdir.

Skeletsiz qəbirlər qədim türklərin yaşadıqları bölgələrdə də mövcuddur. Bu cür qəbirlər genetik cəhətdən türklərlə bağlıdır. Qədim Gültəkin abidələrində də skelet olmamışdır. Rusiya tədqiqatçısı A. A. Kudirqe kurqanlardakı qəbirlər haqqında yazmışdır ki, "*bunlardan biri insan skeleti olmayan, lakin atların dəfn edildiyi qəbirlərdir"* (Gavrilov, 1965, s. 47).

Azərbaycanın əksər bölgələrində olduğu kimi saxurlar da köhnə qəbirlərin üstündə qədim tarixə malik abidələr olur. H. Q. Qədirzadə Naxçıvanda *"qəbirlərin üstündə qədim tarixə malik sənduqələr, çamadan tipli daşlar, daş qoç və qoyun fiqurları qoyulmuşdur. Bunların isə çoxunun üzərində ərəb əlifbası ilə Quran ayələri, müxtəlif yazılar, təsvirlər, hətta canlı təsvirlər də vardır.Halbuki, şəriət canlı təsvirləri qadağan edir. Ən böyük təsvir isə daş qoç fiqurlarının özləridir"* (Qədirzadə, 2012, s. 225).

Bir neçə köhnə saxur qəbirlərin üzərində aypara, 5 guşəli ulduz təsvir olunmuş, ərəb əlifbası ilə yazılar yazılmış, mərhumun adı, soyadı, ata adı, doğum və ölüm tarixləri əks olunmuşdur. Amma indilərdə başdaşına mərhumun şəkli vurulur ki, bunu da uzaqdan gələn adamların qəbri tanıması üçün etdikləri bildirilir. Saxurlar, o cümlədən azərbaycanlılar və digər türk-müsəlman xalqları arasında qəbrə böyük hörmət edilir. Onu söymək, sökmək, dağıtmaq və digər hərəkətlər ən ağır təhqir sayılır. Xalq arasında mərhumun qəbrinə and içmək, müəyyən xeyir-şərdə onun üstünə gəlmək geniş yayaılmışdır. Göründüyü kimi, Azərbaycanın bir çox bölgələrində olduğu kimi saxurlar da şəriət qanunlarına riayət olunmaqla, islamaqədərki adətlərdən istifadə edilmişdir.

### 3-Saxur qəbiristanlığının özünə məxsus xüsusiyyətləri

Oxşas xüsusiyyətlərlə yanaşı saxurların digərlərindən fərqli ölübasdırmaqla bağlı inancları da olmuşdur. Zaqatala rayonu, Yeni Suvagil kənd qəbiristanlığında qəbirlərin ortası boş qalardı, ora ağ daş qoyadılar. Buna tsartsaray (saxurca) deyərdilər. Mütləq onların sayı tək olmalıydı, 3,7,9 və.s.[5] Qax rayonunun Ağyazı, Güllük, Zaqatala rayonunun Gözbarax və digər kəndlərdə də qəbirin üstünə ağ daş da qoyarlar, ağ daşın cənnət simvolu olduğuna inanar, guya bununla mərhumun qəbri işıqlı olardı. Yeni Suvagil kəndindən aldığımız məlumata görə mərhumun 3-ü günündə yaxın adamlarından məsələn ya oğlu, ya qardaşı çay kənarına gedər oradan sayca tək olan ağ rəng daş seçər və qəbrin üzərinə qoyardı. Bu müddətdə heç kimlə danışmamalıydı.[6] Dağıstan saxurlarında nəsil qəbiristanlıqları olsa da, Azərbaycanda yaşayan saxurlarda əsasən ümumi qəbiristanlıqlardır və qəbirlər cərgə ilə düzülür. Əvvəldən yer zəbt

[5] Əhmədova Xanpəri Oruc qızı,informator
[6]Turacov Turac Musa oğlu, informator

eləməyin, qəbir qazmağın Allaha ağır getməsi düşünülərdi. Zaqatala rayonunun Gözbarax kəndində mərhumlar cərgə ilə basdırılır. Zaqatala rayonu, Dağlı (əvvəlki adı Əlibayramlı) kəndində ümumi qəbiristanlıq olsa da, məsələn, Muğanlı kəndində indi də nəsil qəbisristanlıqları var [7]. Qax rayonunun Ləkit kəndində əvvəllər nəsilbənəsil basdırılardı. Amma indi elə deyil.[8]

Lap əvvəllər kütləvi surətdə xəstəliklər, vəba yayılan zaman xəstələri ayrıca dağın ətəyində hazırlanan qəbisritanlıqlarda basdırardılar ki, xəstəlik kəndlərdən uzaq olsun. Həmin kənddə 56 yerdə qəbiristanlıq var. Amma Kəbəloba kəndində isə cəmi 1 qəbiristanlıq mövcuddur. Saxurlarda ölünün üstünə daş hörər, parça qoyar, sonra torpaq tökərdilər. Saxurlarda da yaşıl parça cənnət rəmzidir, ona görə o dünyada xələt qismət olsun deyə yaşıl ipək parça bağlayardılar. Başdaşı 1 ildən sonra qoyulardı, yəni o vaxta qədər torpaq oturur .

Digər özünəməxsus xüsusiyyət isə intihar edənlərin və spirtli içki içən adamların ayrıca basdırılması idi. Qax rayonunun Güllük kəndində də Suvagildə olduğu kimi onlar ayrıca basdırılar və qəbirləri ziyarəıt olunmazdı. Amma indi ümumi qəbiristanlıqda cərgə ilə basdırılır.[9]

---

[7] Hacıyev Məhəmməd Əhməd oğlu,informator
[8] İsmayılov Rüfət Ramazan oğlu, informator
[9] Musayeva Sənəm Əhməd qızı,informator.

## Nəticə

Beləliklə, əldə etdiyimiz etnoqrafik nəticələrə görə qeyd edə bilərik ki, saxurlarda qəbirlər müəyyən standartlara uyğun qazılır. Əvvəllər şəriətə uyğun qəbirlər itməliydi, onların üstündə yazı, şəkil olmazdı. İndi qəbirlər qara mərmərdən hazırlanır, üzərində mərhumun şəkli vurulur, adı, soyadı, doğum və ölüm tarixi yazılır. Vaxtilə intihar edənləri və üstəlik spirtli içki içən mərhumları ayrıca basdırardılar. İndi isə onları da ümumi qəbiristanlıqlarda dəfn edirlər. Kəndlərdə ümumi qəbiristanlıqlar nəsil qəbiritanlığına nisbətən çoxluq təşkil edir. Bəzi kəndlərdə köhnə və təzə qəbiristanlıqlar, böyük kəndlərdə isə bir neçə qəbiristanlıq mövcuddur. İndi demək olar ki, saxurların bütün kənd qəbiristanlıqlarında 44 günlük Vətən müharibəsində qəhrəmanlıq göstərərək həlak olmuş saxur şəhidlərinin müqəddəs qəbirlərinə rast gəlmək olur.Onlar bütün xalqın əbədi ziyarətgahına çevrilmişlər.

## Ədəbiyyat

Agayev, G. (2002). *Shakhtakhty v epokhe pozdney bronzy i rannego zheleza*. Agrydag.

Gadzhiyev, G. A. (1980). *Perezhitki drevnikh predstavleniy v pokhoronno-pogrebal'nykh obryadakh lezgin.* Semeynyy byt narodov Dagestana. Makhachkala.

Gavrilov, A. A. (1965). Mogil'nik Kudirge kak istochnik po istorii altayskikh plemen. Nauka.

Kərimov, Q. (1987). *Şəriət və onun sosial mahiyyəti.* Azərnəşr.

Kərimova, S. (2017). Saxurlar. *Gazeta Samur. Narody mira 5* (310), 2.

Kuleyni, Ə. (2005). *Əl- Kafi* (mütrc. Elgiz Tağızadə). Mübahilə.

Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları'nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasınını NK-nin qərarı. (2018, dekabr 4), *Xalq qəzeti.*

Qədirzadə, H. Q. (2003). *Ailə və məişətlə bağlı adətlər, inanclar, etnogenetik əlaqələr.* Elm nəşriyyat.

Toshakova, Ye. M. (1978). *Traditsionnyye cherty narodnoy kul'tury altaytsev (19- nach. 20 v.).* Nauka.

## Məlumatçılar

Baharova Xədicə Xəlillah qızı, Qax rayonu, Ağyazı kəndi, təvəllüd—1946, milliyyəti-saxur

Əhmədova Xanpəri Oruc qızı, Zaqatala rayonu, Gözbarax kəndi, təvəllüd—1993, milliyyəti-saxur

Hacıyev Məhəmməd Əhməd oğlu, Zaqatala rayonu, Dağlı (əvvəlki adı Əlibayramlı) kəndi, təvəllüd—2004, milliyyəti-saxur

Hüseynov Qeybulla Musa oğlu-Zaqatala rayonu, Yeni Suvagil kəndi,təvəllüd -1943, milliyyəti-saxur

İsmayılov Rüfət Ramazan oğlu, Qax rayonu, Ləkit kəndi, təvəllüd-1966, milliyyəti-saxur

Məlumatçı Şahmaliyeva Xatirə Mollahacı qızı, Qax rayonu, Qum kəndi, təvəllüd—1965, milliyyəti-saxur

Məmmədova Adilə Yusif qızı- Qax rayonu, Güllük kəndi, təvəllüd – 1956, milliyəti–saxur

Muradova Pərzad Süleyman qızı, Zaqatala rayonu, Gözbarax kəndi, təvəllüd-1941, milliyyəti-saxur

Musayeva Sənəm Əhməd qızı- Qax rayonu, Güllük kəndi, təvəllüd – 1937, milliyəti –saxur

Rəcəbova Səriyyə Məhəmməd qızı. Qax rayonu, Qum kəndi, təvəllüd—1974, milliyyəti-saxur

Şabanova Dinara Abdulla qızı, Qax rayonu, Ağyazı kəndi, təvəllüd—1971, milliyyəti-saxur

Təhməzov Xanməhəmməd Rəsul oğlu, Qax rayonu, Kötüklü kəndi, təvəllüd – 1937, milliyəti-saxur

Turacov Turac Musa oğlu-Zaqatala rayonu, Yeni Suvagil kəndi, təvəllüd – 1961, milliyyəti-saxur

Qocayeva Münəvvər Məhəmməd qızı, Zaqatala rayonu, Dağlı (əvvəlki adı Əlibayramlı) kəndi, təvəllüd—1961, milliyyəti-azərbaycanlı (saxur ailəsinə gəlin gəlib)

*Ekler*

***Zaqatala rayonu Yeni Suvagil kənd qəbiristanlığı (şəkillərdə köhnə və yeni qəbiristanlıq təsvir olunmuşdur)***







ГУРБАНОВА
ГЫЗЫ ТВ.190
ВФ.5/Х 1976.

